**Məmmədrzayev Ə.F.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2025.80.113-119**
**UOT:343.1**

## İslah işləri yoxsa pərdələnmiş cərimə

**Xülasə:** Bu məqalədə cinayət hüququndakı iki fərqli cəza növü – **islah işləri** və **ictimai işlər** – qarşılaşdırılaraq müasir yanaşmaların üstünlüyü araşdırılmışdır. MDB dövlətlərinin və bir sıra Avropa dövlətlərinin cinayət qanunvericiliyi təhlil edilmiş və yekunda müasir Avropa ölkələrinin təcrübəsinə əsaslanaraq ictimai işlərin daha humanistik, effektiv və məhkumun cəmiyyətə reabilitasiyasını təmin edən bir cəza olduğu qeyd olunmuşdur.Nəticə olaraq, məqalədə islah işlərindən imtina edərək ictimai işlərə üstünlük verilməsinin müasir hüquq sistemləri üçün daha məqsədəuyğun və faydalı olacağı vurğulanmışdır.

**Açar sözlər:** cinayət hüququ, cəza sistemi, cəzanın növləri, cəzanın məqsədi, islah işləri, ictimai işlər.

**Mammadrzayev A.F.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2025.80.113-119**
**UDC:343.1**

## Correctional Labour or a Disguised Fine

**Abstract:** This article examines two distinct types of criminal sanctions – corrective labor and community service – and analyzes the advantages of contemporary approaches. The criminal legislation of the CIS countries and several European states has been studied. It is concluded that, based on the experience of modern European countries, community service represents a more humane, effective form of punishment that facilitates the social rehabilitation of the convict. Consequently, the article emphasizes that prioritizing community service over corrective labor is more appropriate and beneficial for modern legal systems.

**Keywords:** crime law, punishment system, types of punishment, purpose of punishment, correctional labor, community service.

Cinayət törədənlər cəzasını necə çəkməlidir: cəmiyyətdən təcrid olunmaqla, yoxsa cəmiyyətdən təcrid olunmadan? İllərdir ki, bu sual hüquqşünas alimlər arasında müzakirə gündəmindən düşmür. Bu sualın cavabı hər dövrdə fərqli olub. Tarix boyu müxtəlif cəza növlərindən istifadə edilmişdir. Bu cəza növlərindən bəziləri dövlətlər inkişaf etdikcə ləğv olunmuş,bəzi cəza növləri isə müəyyən dəyişikliklərlə günümüzə qədər gəlib çıxmışdır. Hər bir cəza növününqüvvədə qalıb-qalmaması haqqında davamlı müzakirələr aparılıb, onun tətbiqinin həm

♦ **Məmmədrzayev Əmir Fərruz oğlu** - Azərbaycan Respublikası DİN-in Polis Akademiyası "Əməliyyat-axtarış fəaliyyəti" kafedrasının müəllimi, polis baş leytenantı (Azərbaycan). E-mail: emirmemmedrzayev@gmail.com
♦ **Mammadrzayev Amir Farukh oglu** - Lecturer at the Department of "Operational and Investigative Activities" of the Police Academy of the Ministry of Internal Affairs of the Republic of Azerbaijan, Senior Lieutenant of Police (Azerbaijan). E-mail: emirmemmedrzayev@gmail.com

tərəfdarları, həm də əleyhdarları olub. Hazırda müzakirəsi maraq kəsb edən belə cəza növlərindən biri də islah işləridir.Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 49-cu maddəsi islah işlərinə həsr olunmuşdur və bu cəza növünün xüsusiyyətlərini, tətbiq mexanizmlərini və məhdudiyyətlərini ətraflı şəkildə müəyyən edir. Maddəyə əsasən, islah işləri müəyyən edilmiş müddət üçün, yəni iki aydan iki ilə qədər təyin olunur və məhkumun əsas iş yeri üzrə icra edilir. Bu cəza məhkumun həm sosial reabilitasiyasını təmin etmək, həm də cəmiyyətə faydalı əmək fəaliyyəti vasitəsilə cinayətkar davranışın qarşısını almaq məqsədi güdür. Maddədə həmçinin qeyd edilir ki, islah işinə məhkum olunmuş şəxsin əmək haqqından dövlət xeyrinə müəyyən faiz tutulur, bu, 5%-dən 20%-dək dəyişir. Bu mexanizm həm cəzanın icrasını təmin edir, həm də məhkumun məsuliyyətini artırır. Əgər məhkum cəzanı yerinə yetirməkdən qəsdən yayınarsa, qanun bu cəza növünün,yaxud onun çəkilməmiş hissəsinin başqa cəza növləri ilə əvəz olunmasına imkan verir. Konkret olaraq, çəkilməmiş müddət azadlığın məhdudlaşdırılması və ya azadlıqdan məhrum etməcəzası ilə əvəz edilə bilər. Bu zaman məhkumun islah işlərini yerinə yetirdiyi müddət nəzərə alınır və çəkilməmiş iki gün islah işlərinə bir gün azadlığın məhdudlaşdırılması və ya dörd gün islah işlərinə bir gun azadlıqdan məhrum etmə hesabı ilə hesablanır. Bundan əlavə, maddədə müəyyən məhdudiyyətlər də nəzərə alınır: funksional pozğunluğu 81–100% olan əlillərə və hərbi qulluqçulara islah işləri tətbiq olunmur. Çünki hərbi qulluqçulara islah işlərinin əvəzinə hərbi xidmət üzrə məhdudlaşdırma adlanan cəza tətbiq olunur [1].

İslah işləri növündə cəza yalnız MDB iştirakçısı olan ölkələr üçün xarakterikdir. Bu cəzanın özünəməxsusluğu onun postsovet məkanında unikallığında, cəza-məcburiyyət elementlərinin davamlı əmək-islah təsiri ilə birləşməsində, onun icrasının korreksiyası üçün məlum imkanlarda ifadə olunur. Belə ki, A. Traxov ayrı-ayrı cəzaların icrası təcrübəsinin təhlili əsasında belə bir nəticəyə gəlir ki, islah işləri, habelə ictimai işlər, azadlığın məhdudlaşdırılması və həbs, Rusiyada yaranmış bazar şəraitində cinayətkarlıqla mübarizədə tətbiq üçün real perspektivə malik deyildir.Yəni, o dövrdə belə islah işlərindən imtina edilib edilməməsi gündəmdə idi,lakin bunun tərəfdaşları az idi. Ədəbiyyatda islah işləri və məhkumların əməyindən istifadə ilə bağlı bəzi digər cəza növləri ilə bağlı daha da kəskin fikirlər mövcuddur.

İslah işlərinə hal-hazırda Belarus və Ukrayna cinayət qanunvericiliyində ətraflı şərh verilmişdir. Belarus və Ukrayna Cinayət Məcəllələrinə əsasən, islah işləri tətbiq olunan məhkumların əmək haqqından dövlət xeyrinə tutulmalar müəyyən faizlərlə tənzimlənir. Belarus Respublikasında bu məbləğ 10-25% arasında dəyişir (maddə 52), Ukraynada isə 10-20% təşkil edir (maddə 57). Həmçinin, bu cəza növünün tətbiq edilə bilməyəcəyi şəxslərin kateqoriyaları qanunla müəyyən edilmişdir. Belarus Respublikasında islah işləri ölkədə daimi yaşamayan əcnəbi və vətəndaşlığı olmayan şəxslər, açıq formalı vərəm xəstələri, HİV-infeksiyalı və QİÇS xəstələri, eləcə də daimi iş yeri olmayan şəxslərə tətbiq edilə bilməz (maddə 52, hissə 2). Ukrayna qanunvericiliyinə görə isə islah işləri əmək qabiliyyəti olmayanlar, hüquq-mühafizə orqanlarının əməkdaşları, notariuslar, hakimlər, prokurorlar, vəkillər, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının vəzifəli şəxslərinə şamil edilmir (maddə 57, hissə 2).

Cəzanın çəkilməsi müddətinin başlanğıcı məhkumun işlədiyi təşkilatın rəhbərliyinin məhkəmə hökmünün (qərardadının, qərarının) surətini və digər sənədləri cəza-icra orqanından aldığı gündür - Ukrayna CİM-nin 39-cu maddəsinin 3-cü hissəsi (Rusiyada müddətin başlanğıcı – məhkumun işə çıxdığı gündür). Maraq doğuran norma odur ki, məhkumun işləmədiyi, lakin qanuna uyğun olaraq onun üçün əmək haqqının saxlandığı vaxt, habelə onun işsiz kimi tanındığı vaxt islah işlərinin çəkilməsi müddətinə daxil edilir (Ukrayna CİM-nin 30-cu maddəsinin 4-cü hissəsi). Rusiya

qanunvericiliyinə görə, məhkumun hər hansı səbəbdən asılı olmayaraq işləmədiyi vaxt cəzanın çəkilməsi müddətinə daxil edilmir.

Azərbaycan CM islah işlərinin yalnız məhkumun iş yeri üzrə çəkilməsini, Qazaxıstan CM-nə görə islah işləri yalnız məhkumun iş yeri üzrə, Tacikistan, Türkmənistan, Özbəkistan CM-nə görə isə – həm iş yeri üzrə, həm də bu cəzanın icrasına cavabdeh olan müvafiq orqanlar tərəfindən müəyyən edilən digər yerlərdə çəkilir [7]. Azərbaycan CİM-nin 43-cü maddəsinin 2-ci hissəsinə görə, işləməyən məhkuma əvvəlcə üç ay ərzində işə düzəlmək təklif edilir, zərurət olduqda ona bu işdə yardım göstərilir. İstənilən halda işsiz məhkum məşğulluq xidməti orqanlarında uçota durmağa borcludur [2]. O, bu xidmət tərəfindən təklif olunan işdən imtina edə bilməz (Azərbaycan CİM-nin 43-cü maddəsinin 3-cü hissəsi). Analoji norma Belarus CİM-də (maddə 37, hissə 4), Tacikistan CİM-də (maddə 39, hissə 4) də vardır.

İslah işlərinin müxtəlif MDB dövlətlərindəki təhlilinin vəziyyətindən belə nəticəyə gəlmək olur ki, onlar demək olar ki eyni çərçivədə tətbiq olunur. Bu regionda olan dövlətlərdən sadəcə Moldovada islah işləri tətbiq edilmir.Onun əvəzinə əksər Avropa ölkələrində tətbiq edilən ictimai işlərə üz tutulur. İslah işləri, əsasən keçmiş sovet sistemi ölkələrində geniş yayılmış və məhkumların məcburi, aşağı maaşlı əməyə cəlb olunmasına əsaslanan bir cəza növü idi. Bu sistemdə əsas məqsəd cinayətkarın əməyindən istifadə edərək dövlətə iqtisadi fayda gətirmək idi. Bu yanaşma, cəzanın iqtisadi bir vasitəyə çevrilməsinə səbəb olurdu. Cinayət hüquq ədəbiyyatında islah işlərinin cəza növü kimi qiymətləndirilməsi müəlliflər arasında tam yekdil deyil. Məsələn, V.D. Menşagin hesab edir ki, islah işləri müəyyən mənada “mask alanmış” cərimə xarakteri daşıyır. Onun fikrincə, islah işləri hətta cərimədən daha yüngül cəza növü sayılır, çünki cərimə bir dəfəlik ödənilsə də, islah işləri müddətcə, adətən aylar üzrə tətbiq olunur. Hesab edirəm ki, islah işləri cəzasında şəxsin gəlirinin müəyyən faizinin tutulması əslində cərimənin ödənilməsi üçün dövlət tərəfindən müəyyənləşdirilmiş bir mənbənin formalaşdırılmasından başqa bir şey deyildir. Çünki islah işlərində dövlət, sanki məhkumun əmək haqqının yalnız bir hissəsini alaraq onun tam iqtisadi sərbəstliyini məhdudlaşdırır və beləliklə şəxsi daha az əməkhaqqı ilə işləməyə məcbur edir. Bu baxımdan, islah işləri daha yüngül bir cəza kimi qiymətləndirilə bilməz. Belə ki, cəzaların icrası məcəlləsinin 23.2-ci maddəsinə əsasən, məhkum müəyyən səbəblərə görə cəriməni bir ay ərzində ödəyə bilmədikdə, məhkəmə onun müraciətinə əsasən ödənişi təxirə sala və ya hissə-hissə ödəmək barədə qərar verə bilər [2]. Bu, cərimə cəzasının tətbiqində fərdin maddi vəziyyətinin nəzərə alındığını və ödənişin bir aylıq müddətinin mütləq xarakter daşımadığını göstərir.Lakin islah işlərində şəxsin öz əməyinin qarşılığını tam formada ala bilməməsi, cəzanın ağırlığını mənəvi və psixoloji cəhətdən daha da artırır. Bu, cəzanın islah və reabilitasiya funksiyasını zəiflədərək, onu iqtisadi məqsədli bir tədbirə çevirir.Fikrimcə,islah işləri cəzasının iqtisadi funksiyası cərimə vasitəsilə daha effektiv şəkildə həyata keçirilə bilər. Əgər cəzanın məqsədi dövlətə və ya zərərçəkənə dəymiş ziyanın maddi kompensasiyasıdırsa, bu məqsəd şəxsin məcburi əməyindən faiz tutmaqdansa, birbaşa pul ödənişi tələb etməklə daha şəffaf və sadə şəkildə reallaşdırıla bilər. İslah işlərinin islah və reabilitasiya funksiyasları isə daha humanistik və məqsədəuyğun olan ictimai işlər cəza növü ilə təmin edilə bilər. İctimai işlər məhkumun cəmiyyətdən təcrid olunmadan, lakin sosial əhəmiyyət daşıyan işlər görməklə cəzasını çəkməsini nəzərdə tutur. Bu yanaşma, məhkumun sosial məsuliyyət hissini inkişaf etdirir və onun cəmiyyətə reabilitasiyasını təmin etməklə gələcəkdə təkrar cinayət törətmə riskini azaldır.

İslah işlərinin qanunvericiliyimizdə mövcud olan ictimai işlər cəza növü ilə əvəz edilə biləcəyini təsdiqləmək üçün bəzi Avropa dövlətlərinin qanunverici aktlarına müraciət etmək

məqsədəuyğundur. Lakin ilk növbədə, sonuncu qeyd edilən cəza növü – ictimai işlər – haqqında qısa izah vermək faydalı olar.İctimai işlərlə bağlı müddəalar ilk dəfə 1832-ci il Rusiyada Qanunlar Məcəlləsində qeyd olunur, burada 34 və 35-ci maddələrdə şəhər işləri və özəl şəxslər yanında işlər aşağı təbəqələrdən olan məhkumlara təyin edilən müstəqil cəza növü kimi qeyd olunur. Belarus, Moldova və Ukrayna qanunvericiliyinə görə ictimai işlər öz məzmununa və icrası qaydasına görə əhəmiyyətli fərqlərə malikdir. Belarus CM (maddə 44) və Ukrayna CM-nə (maddə 56) görə onlar ictimai işlər, Moldova CM-də (maddə 67) isə – cəmiyyətin xeyrinə ödənişsiz əmək adlandırılır. Ölkəmizin Cinayət Məcəlləsinin 47-ci maddəsi ictimai işləri əhatə edir. Maddəyə əsasən, ictimai işlər məhkumun əsas işindən və ya təhsilindən asudə vaxtında, ödənişsiz şəkildə cəmiyyətin xeyrinə faydalı işlər yerinə yetirməsi formasında həyata keçirilir. Bu işlərin konkret növləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.İctimai işlərin müddəti 240–480 saat arasında təyin edilir və gündə maksimum dörd saatdan artıq ola bilməz. Məhkumun fəaliyyətini izləmək üçün məhkəmə elektron nəzarət vasitəsinin istifadəsini də tələb edə bilər; məhkum bu vasitəni işlək vəziyyətdə saxlamaq və onunla əlaqədar xidmətləri təmin etmək öhdəliyinə malikdir.

Əgər məhkum qəsdən ictimai işləri yerinə yetirməzsə, məhkəmə qalmış müddəti azadlığın məhdudlaşdırılması və ya azadlıqdan məhrum etmə cəzası ilə əvəz edə bilər. Bu halda, artıq yerinə yetirilmiş işlər nəzərə alınır və hesablamada dörd saat yerinə yetirilməmiş ictimai iş bir gün azadlığın məhdudlaşdırılmasına, səkkiz saat isə bir gün azadlıqdan məhrum etməyə ekvivalent sayılır.Eyni zamanda, ictimai işlər müəyyən kateqoriyadakı şəxslərə tətbiq edilə bilməz. Bu kateqoriyalara funksional pozğunluğu 61-100% olan əlillər və əlilliyi olan uşaqlar, hamilə qadınlar, himayəsində üç yaşadək uşaq olan qadınlar və bu uşaqları təkbaşına böyüdən kişilər, pensiya yaşına çatmış qadın və kişilər, həmçinin hərbi qulluqçular daxildir. Zaqafqaziya respublikalarında ictimai işləri icra edən müxtəlif orqanlar müəyyən edilmişdir: Rusiyada – cinayət-icra inspeksiyaları (Azərbaycanda – məhkəmə icraçısı (Azərbaycan CİM-nin 34-cü maddəsi). Beləliklə, ictimai işlər demək olar ki, bütün MDB dövlətlərində cinayət cəzası və ya cinayət-hüquqi tədbir (Türkmənistan, Ukrayna) kimi nəzərdə tutulmuşdur. MDB ölkələrinin cinayət məcəllələri məhkumun ictimai işləri yerinə yetirməyə razılığını tələb etmir, lakin əmək qanunvericiliyi normalarından və digər hallardan çıxış edərək, bu cəzanın təyin edilə biləcəyi şəxslərin dairəsini əhəmiyyətli dərəcədə məhdudlaşdırır. İşlərin müddəti gündə dörd saatdan çox olmamalıdır.

Avropanın bir çox ölkəsində də ictimai işlər cinayət qanunvericiliyində mühüm bir cəza növü kimi tətbiq olunur. Bu cəza növü, qısa müddətli həbs cəzalarına alternativ olaraq cinayət törətmiş şəxslərin cəmiyyətdən təcrid olunmadan ictimai faydalı işlər görməsini nəzərdə tutur. Bu yolla həm cəmiyyətə fayda verilir, həm də cinayətkarın reabilitasiyası və cəmiyyətə inteqrasiyası təşviq edilir.

Böyük Britaniyada ictimai işlər "Community Payback" adlanır və icma cəzalarının bir hissəsidir. İngiltərə və Uelsdə "Criminal Justice Act 2003" və "Legal Aid, Sentencing and Punishment of Offenders Act 2012" qanunları bu cəza növünü tənzimləyir.Şotlandiyada isə"Criminal Justice Act 2003" və "Criminal Justice and Licensing Act 2010" qanunları əsasında tətbiq edilir.Əsasən 60 saatdan-300 saatadək ictimai işlər tətbiq edilə bilir [4].

Fransada ictimai işlər "ümumi maraq üçün iş" adlanır və həbs cəzasına alternativ kimi tətbiq edilir.Fransa Cinayət Məcəlləsinin 131-8 və 131-22 ci maddələri ilə ictima işlər tənzimlənir və müddət isə 40 saatdan 240 saatadək göstərilir [3].

Dünyanın ən xoşbəxt ölkələrindən sayılan,cinayətlərin sayının digər dövlətlərə nisbətən daha az olduğu Norveç, Finlandiya kimi dövlətlərdə də ictimai işlərdən istifadə olunur. Norveçdə ictimai işlər "ictimai cəza" sisteminin bir hissəsidir. Bu sistem məhkumun davranışına nəzarətlə yanaşı,

onun məşğulluğunu, təhsilini və psixoloji dəstəyini də təmin edir [5]. Finlandiyada ictimai xidmət sistemi çox inkişaf etmişdir. Bu cəza 8 aya qədər həbs cəzasına alternativ olaraq geniş şəkildə istifadə olunur. Finlandiya Cinayət Məcəlləsinin 6-cı fəsli ictimai xidmətin şərtlərini, müddətini və tətbiq qaydalarını dəqiqliklə müəyyən edir.İsveçdə isə Almaniyada olduğu kimi ictimai işlər çox vaxt sınaq müddəti ilə birlikdə tətbiq olunur. Yəni, məhkum sınaq müddətində ictimai işləri icra etməli və müəyyən qaydalara riayət etməlidir. Bu sistem məhkumun davranışına nəzarət edir və ona dəstək verir [6].

Nəticə olaraq qeyd edə bilərik ki, islah işləri sovet keçmişinin bir qalığı olaraq qalmaqdadır. Müasir cinayət qanunvericiliyi isə humanistik prinsiplərə əsaslanan və həm cinayətkarın, həm də cəmiyyətin faydasına olan ictimai işlər cəzasını daha doğru və məqsədəuyğun sayır. XX əsrin sonlarında sovet cəza sistemini tənqid edən hüquqşünaslar və sosioloqlar islah işlərinin formal cəza məqsədlərindən daha çox iqtisadi məqsədlərə xidmət etdiyini qeyd edirdilər. Onlar bu cəza növünü "kölə əməyi" və ya "məcburi əmək" adlandırırdılar. Onlar iddia edirdilər ki, bu sistem məhkumların reabilitasiyasına yönəlmir, əksinə dövlət üçün ucuz işçi qüvvəsi yaradır. İslah işlərindən tutulan məbləğləri alan dövlət, cəmiyyət üçün faydalı işlərin görülməsi üçün onsuz da maliyyə vəsaiti ayıracaqsa, bu işləri məhkumlara əməkhaqqı ödəmədən icra etdirməsi daha məqsədəuyğun olar. Bu yanaşma, həm məhkumun əməyini birbaşa cəmiyyətin rifahına yönəltməyə xidmət edər, həm də dövlətin büdcəsindən əlavə vəsait xərcləməsinin qarşısını alar. Beləliklə, cəza sistemi iqtisadi səmərəlilik və sosial fayda prinsiplərini birləşdirərək daha effektiv olar. Bu cəza növünün əsas məqsədi məhkumun cəzasını cəmiyyətdən təcrid olunmadan, ictimai rifaha xidmət edən fəaliyyətlər vasitəsilə çəkməsini təmin etməkdir. Məsələn, yaşlılara və ya əlillərə kömək etmək, parkların təmizlənməsində iştirak etmək və ya uşaq evləri üçün könüllü olaraq iş görmək.

İslah işləri cəzasının ən ciddi tənqidlərdən biri onun əslində pərdələnmiş cərimə olmasıdır. Dövlət islah işləri ilə məhkumun əməyindən əldə etdiyi məbləği ya dövlət büdcəsinə, ya da məhkəmə xərclərinə yönəldir. Bu sistemdə məhkum əmək haqqını tam almır. Beləliklə, cəza sisteminin əsas məqsədi olan reabilitasiya və cəza çəkmə prosesi arxa plana keçir.

Əgər qanunvericini maraqlandıran məsələ cinayətkardan pul əldə etməkdirsə, bu məbləği ictimai faydalı fəaliyyətə yönəltmək daha doğru və məqsədəuyğundur. Belə bir sistemdə, məhkum hər hansı bir işdə işləyib maaşını cərimə kimi ödəmək əvəzinə, cəmiyyət üçün faydalı işləri pulsuz yerinə yetirir. Bu, cinayətkarın cəmiyyətə olan "borcunu" maddi ödənişlə deyil, konkret və görünən bir fayda yaratmaqla ödədiyini göstərir. Bu yanaşma həm cəmiyyətin faydasına, həm də cinayətkarın sosial məsuliyyətini anlamasına kömək edir.

Yuxarıda qeyd olunan bütün bu mülahizələri və beynəlxalq təcrübəni nəzərə alaraq, hesab edirəm ki, mövcud qanunvericiliyimizdən islah işləri cəzasının çıxarılması daha məqsədəuyğun olardı. Bu addım həm cinayət hüququmuzun humanistik prinsiplərini gücləndirəcək, həm də cəza sistemimizi Avropa təcrübəsinə uyğunlaşdıracaq.

## Biblioqrafiya

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46947

2. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46951

3. Fransa Cinayət Məcəlləsi. [Elektron resurs]. URL: https://www.legifrance.gouv.fr/codes/texte_lc/LEGITEXT000006070719/?utm_source
4. Böyük Britaniya cinayət qanunu. [Elektron resurs]. URL: https://www.legislation.gov.uk/ukpga/1977/45?utm_source
5. Norveç Cinayət qanunu. [Elektron resurs]. URL: https://www.unodc.org/uploads/icsant/documents/Legislation/Norway/The_Penal_Code_-_Lovdata.pdf?utm_source
6. Finlandiya cinayət qanunu. [Elektron resurs]. URL: https://www.finlex.fi/en/legislation/acts/1889/18890039001
7. Qazaxıstan Cinayət Məcəlləsi. [Elektron resurs]. URL: https://adilet.zan.kz/rus/docs/K1400000226

***Məqalə daxil olmuşdur:*** *19 sentyabr 2025-ci il*
***Çapa qəbul edilmişdir:*** *29 sentyabr 2025-ci il*

## References

1. Criminal Code of the Republic of Azerbaijan. Available at: https://e-qanun.az/framework/46947 (in Azerbaijani).
2. Code of the Execution of Sentences of the Republic of Azerbaijan. Available at: https://e-qanun.az/framework/46951 (in Azerbaijani).
3. Criminal Code of France. Available at: https://www.legifrance.gouv.fr/codes/texte_lc/LEGITEXT000006070719/?utm_source
4. Criminal Law of Great Britain. Available at: https://www.legislation.gov.uk/ukpga/1977/45?utm_source
5. Criminal Law of Norway. Available at: https://www.unodc.org/uploads/icsant/documents/Legislation/Norway/The_Penal_Code_-_Lovdata.pdf?utm_source
6. Criminal Law of Finland. Available at: https://www.finlex.fi/en/legislation/acts/1889/18890039001
7. Criminal Code of Kazakhstan. Available at: https://adilet.zan.kz/rus/docs/K1400000226 (in Russian).

***The article was submitted:*** *2025 September19*
***Accepted for publication:*** *2025 September 29*

**Маммедрзаев А.Ф.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2025.80.113-119**
**УДК:343.1**

## Исправительные работы или замаскированный штраф

♦ **Маммедрзаев Эмир Фаррух оглы** - преподаватель кафедры «Оперативно-розыскная деятельность», Академия Полиции МВД Азербайджанской Республики, старший лейтенант полиции (Азербайджан). E-mail: emirmemmedrzayev@gmail.com

**Аннотация:** Рассматриваются два различных вида уголовных наказаний – исправительные работы и общественные работы – с целью анализа преимуществ современных подходов. Проанализировано уголовное законодательство государств СНГ и ряда европейских стран. Сделан вывод, что на основе опыта современных европейских государств общественные работы представляют собой более гуманную, эффективную меру наказания, способствующую социальной реабилитации осужденного. В заключение подчеркивается, что предпочтение общественных работ перед исправительными является более целесообразным и полезным для современных правовых систем.

**Ключевые слова:** уголовное право; система наказаний; виды наказаний; цель наказания; исправительные работы; общественные работы.

***Дата поступления:*** *19 сентября 2025 г.*
***Дата принятия в печать:*** *29 сентября 2025 г.*